UOT 101.1; :316

# MENTALİTET NƏZƏRİYYƏLƏRİ: METODOLOGİYA MƏSƏLƏLƏRİ

**S.H.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***Sahibe_eliyeva@mail.ru***

*Müasir qloballaşma və modernləşmənin xarakterik əlamətləri deməyə əsas verir ki, sosiosiyasi rejimdən asılı olmayaraq inteqrasiya prosesləri həyat fəaliyyətinin təminatı olan əxlaqi-etik dəyərlərə yenidən baxmağı, onların praktik həyat üçün zəruri elmi-metodoloji mexanizmlərinin işlənib hazırlanmasını tələb edir. Bu günə qədər həmin sahədə aparılan tədqiqatlar əsasən analitik xarakter daşımışdır. Bu təbii elmi araşdırma metodudur və biz də bunun zəruriliyini təqdir edirik. Lakin bizcə əldə edilən məlumatların sintezi, onların nəzəri-induktiv ümumiləşdirilməsi göstərir ki, burada başqa yanaşmalara, metodlara da ehtiyac duyulur. Belə bir anlayış mentalitetdir. Məqalə də məhz mentalitetin nəzəriyyələrindən bəhs edir.*

**Açar sözlər:** deduktiv, rasional, irrasional, transpofonal, invariant, koqnitiv

Dünya proseslərinin idarə olunması sosial subyektlərin məqsədyönlü fəaliyyəti və iradəsi sayəsində mümkün olur. Davranışları isə idarə edən mentalitet, yaxud mentallıqdır, yəni fərdi və kollektiv dünyaqavrayışının, dünyagörüşünün, son nəticədə davranışının dərin əsaslarıdır ki, bunlar, yəni həmin mental əsaslar mədəniyyətin, dinin, fəlsəfənin və təhsilin törəmələridir.

«Mentalitet» anlayışı M.Moss tərəfindən 1905-ci ildə işlədilmişdir [2, 307]. Elmi dövriyyəyə L.Fevr və M.Blok tərəfindən daxil edilən bu anlayış isə müxtəlif sosiomədəni fenomenlərin öyrənilməsində, xüsusilə, «kollektiv dərk edilməmiş»in mahiyyətinin açılmasında istifadə olunmuşdur.

Mentalitetin formalaşma səbəbi həyatın obyektiv reallıqlarında mənəvi xarakterli subyektiv təsirlər, şəxsiyyətin müvafiq sosial-genetik yönümünü boğmaq mənbəyi olan cəmiyyət hadisələrinin təsirindən də irəli gələ bilər. Lakin son nəticədə insan varlığının əsaslarını, insanların müxtəlif təsirlərə qapılmasına baxmayaraq, onların davranışını mədəni dəyərlər müəyyənləşdirir. Çünki mentalitet, ən ümumi şəkildə insanların həyat və praktikasındakı yönümlənmələrini, dünyanın sabit obrazlarını, emosional vəziyyətlərini, bu vəziyyətdə insanın üstünlük verdiyi məqamları, mövcud cəmiyyətə xas olan mədəni və ənənəvi dəyərləri əks etdirir [2, 25]. Ona görə də, hazırda bir çox tədqiqatçılar

belə əqidədədirlər ki, hər bir xalqın sosial tarixini, hətta bəşəriyyətin tarixi keçmişini və bu gününü izah etmək yalnız mental ölçülərdə, yalnız insan cəmiyyətinin mental xarakteristikalarını öyrənmək sahəsində mümkündür [3;4;5;6;7]. Tədqiqatçılar metodologiya baxımından hesab edirlər ki, elmin yeni paradiqması mötəbər bilik sistemi kimi idrak prosesinin özündə rasionalla irrasionalın dünyagörüşü baxımından qarşılıqlı mürəkkəb münasibətlərini nəzərə alan faktor kimi bu gün çox geniş aspektdə öyrənilir.

Belə bir metodoloji prinsipi də nəzərə alaq ki, mentalitet daha ümumi və daha dərin məna kəsb edir, nəinki fərdi, yaxud ictimai şüur kateqoriyası və buna görə də mentaliteti onun əks etdirdiyi insanın dünyagörüşü və davranışı ilə bağlı mahiyyət hadisələri ilə eyniləşdirmək, onlara müncər etmək düzgün deyildir, çünki belə halda həm mentalitetin, həm də ictimai şüur formalarının təbiətini saxtalaşdırmalı oluruq. Buna görə də mentalitet nəzəriyyələrinin şərhinə keçməzdən əvvəl araşdırdığımız problemin təhlili kontekstində, ümumiyyətlə, şüur barədə bir neçə mülahizə söyləmək istərdik.

Şüur bütünlükdə subyektiv reallığı təcəssüm etdirən, insanın və onun fikirlərini, hissi obrazlarını, daxili sövqedici motivlərini, təxəyyülünü, iradəsini əks etdirən ideal sferaya aiddir. Əgər mentalitetə sosial-inteqrativ faktor kimi yanaşsaq, belə bir mülahizədən çıxış etmək istərdik: həqiqətənmi, insanın və cəmiyyətin dünya anlamının və davranışının həqiqi qaynaqlarını öyrənməkdə yalnız fərdi, yaxud ictimai şüura müraciət etmək kifayətdirmi? Bizcə, bu mövqe özünü tam doğrultmur. Məsələ bundadır ki, hər bir şüur fərdidir, çünki maddi və mənəvi aləmin bu və ya digər proseslərini dərk edən və qiymətləndirən real fərdlərin «canlı şüuru» kimi çıxış edir. Şəxsiyyətsiz fərdi şüur mümkün deyil. Fərdi şüur şəxsiyyətlə birlikdə inkişaf edir, o, məhz həmin şəxsiyyətin təkrarsız cəhətlərini fərdi əks etdirir. Bununla yanaşı, fərdi şüur fərdin yaşadığı və fəaliyyət göstərdiyi mühitin, cəmiyyətin şüurunun dəyişməz elementlərini seçim yolu ilə qeydə alır, dəyişir, öz səviyyəsində müəyyənləşdirir. Onun şüuru, şübhəsiz ki, cəmiyyətdə real mövcud olan transpofonal şüurla şərtlənir. Bu cür ictimai şüur şəxsiyyət fövqündə duran şüurdur, onun məzmunu predmetləşmiş şəkildə mövcud mədəniyyət formalarında, hüquqi sənədlərdə, sosial institutların fəaliyyətində dolayı, vasitəli formada mövcud ola bilər. O, həmçinin öz təcəssümünü çoxlu sayda fərdi şüurlarda da tapa bilər, baxmayaraq ki, onlara müncər edilmir. Beləliklə, biz ictimai şüurla fərdi şüurun arasında qırılmaz vəhdət ideyasından çıxış edərək göstərmək istəyirik ki, ictimai şüurda baş verən yeniliklərin mənbəyi fərdi şüurdadır, çünki ictimai şüurda yaranan yenilikləri, yeniləşmələri son nəticədə konkret insanlar yaradırlar.

Mentalitetin dərki, onun bütün potensialını aşkarlamaq baxımından şüurla mentalitetin müvafiq növləri arasında qarşılıqlı münasibət və fərqi göstərmək problemin həllinə daha məhsuldar yanaşma olardı. Mentalitetin hərtərəfli dərki fərdin bütöv obrazının yaradılması deməkdir, bu isə inkişaf etmiş mənlik şüurunun əsas «məhsuludur» [8, 69]. Bu isə həmin fenomeni hərtərəfli təhlil

edən, fənlərarası mənəvi substansiya olan mental mahiyyətlərin xarakteristikalarının öyrənilməsi üçün son dərəcə vacib olan mentalitet nəzəriyyəsinin yaradılmasını tələb edir. Birincisi, mentalitet «şüur», «davranış yönümlənməsi» eyniyyət təşkil etmir. Hər şeydən əvvəl qeyd edək ki, yönümlənmə subyektin spesifik vəziyyəti olub hərəkətdən əvvəl gəlir, onun ilkin mərhələsi, hərəkətə köklənmə vəziyyəti kimi çıxış edir. Yönümlənmə insanın əvvəlcədən davranışının və şüurunun motivasiya mexanizmlərinə daxildir. Ona görə ki, birincisi fəaliyyətin müəyyən obyektə köklənməsinə xidmət edir, ikincisi isə tələbatçıların və motivlərin nisbi sabitliyini təmin edir. Sosial psixoloq Q.Q.Diligenski göstərir ki, yönümlənmələr sayəsində subyektə həmişə onun tələbatlarının ödənilməsi vasitələrini müəyyənləşdirməyə ehtiyac qalmır, çünki bunlar artıq yönümlənmələrdə qeydə alınmışdır [9, 134].

Mentaliteti nə şüura, nə də davranışa və onun mexanizmlərinə müncər etmək düzgün yanaşma deyildir və bu cür yanaşma onun mahiyyət xarakteristikalarını təhrif edə bilər. Mentalitet ilk növbədə həyatın, davranışın və əməllərin müxtəlif tərəflərinə şəxsi və ictimai münasibətlərin dərin, meyar əsaslarını xarakterizə edir. Belə bir mülahizə ilə razılaşmaq olar ki, mentalitet şəxsi və ictimai şüurun meyar əsasıdır, o, fərdin, yaxud cəmiyyətin bu və ya digər dünyaqavranılmasına, dünyagörüşə potensial meylliyini əks etdirir, bu və ya digər həyat situasiyalarında, əlbəttə, müəyyən ehtimallıqla, insanın real əməllərini, cəmiyyətin davranışının real gözləmələrini səciyyələndirir.

Mentalitetin aşağıdakı səviyyələrini göstərmək mümkündür. Birincisi, fərdi mentalitet − bu, konkret şəxs, konkret fərd səviyyəsində təzahür edir. İkincisi, milli-etnik, sinfi, peşə, yaş və digər əlamətlərinə görə fərqlənən qrupun, kollektivin, insan biliklərinin səviyyəsində təzahür edən mentalitet. Üçüncüsü, sosiumun mentaliteti − özündə öz birliklərini, kollektivləri və qrupları, bütün fərdləri, yəni bütün xalq səviyyəsində təzahür edir. Bu mentalitet forması mövcud cəmiyyətin ərazisində, aramsız istehsal olunan və bir-birlərini əvəz edən nəsillərin həyatında yaşayır və təzahür edir. Mentalitet, hər şeydən əvvəl, sosial kateqoriyadır, lakin geniş mənada bu fenomen mənəvi kateqoriya kimi qiymətləndirilir. Yalnız bu səviyyədə mentalitet fərdi və ictimai şüura, dünyagörüşə, davranışa münasibətdə meyar əsasları funksiyasını yerinə yetirə bilər. Sosial-əxlaqi faktor insanın və insan birliklərinin dünyaya, həyatın müxtəlif sferalarına müəyyənedici münasibətdir, çünki sosial-psixoloji, sosial-tarixi, sosiomədəni, sosial-siyasi kateqoriyalar mentaliteti xarakterizə edir.

Sosial sfera elə bir mühüm amildir ki, məhz burada insan özünün həyata şüurlu münasibətini heç də yalnız şüur, mənlik şüuru, yaxud bitəəlşüur səviyyədə deyil, daha çox həmin cəmiyyətdə formalaşan dəyərlər vasitəsilə bildirir. Məhz hər cür manipulyasiyaya və deformasiyaya, deməli zamanda keçici olan fərdi və ictimai şüurun elementləri deyil, dərin, köklü, mental keyfiyyətlər və xarakteristikalar sosial ötürmə obyektləridir və sosial yaddaşda saxlanılırlar, Bununla da şəxsiyyətin və cəmiyyətin sosial-genetik kodunun məzmununu və

sturkturunu müəyyənləşdirirlər. İstər ictimai mentalitet, istərsə də sosiumun mentaliteti subyektiv reallıq, mənəvi substansiya kimi o zaman məna kəsb edir ki, bunları real qavrayan potensial subyektlər, yəni insanlar vardır. «Sosiumun mentaliteti» kateqoriyasının çox vacib cəhəti bundadır ki, sosiumun həyatı prioritetlərini və məna yaradan dəyərlərini özündə təcəssüm etdirən mənəvi xəzinəsini xarakterizə edir və həyata atılan hər bir insan üçün özünün və başqa xalqların daxili aləminə, ənənəsinə və mədəniyyətinə qovuşmasına imkan yaradır.

O, eyni zamanda öz mənəvi səyləri sayəsində aramsız yaradıcılıq, yeniləşmə və zənginləşmə obyektidir, hər bir insanın mənəvi təcrübəsi, həm də digər sosiumlarla inteqrasiya hesabına yaradıcı fenomenidir. Məhz bu mənəvi fəallıqda insanın həyatı ali məna kəsb edir, bu inamın formalaşdırılması isə mədəniyyətin və təhsilin yüksək təyinatıdır. Sosiumun mentaliteti xalq kütlələrinin davranışında həlledici rol oynayır. Mentalitetdə olan mənəvi enerji vahid səydə birləşmiş insanların iradəsi ilə qovuşaraq böyük qüvvəyə çevrilir. O, bəzən dağıdıcı qüvvəyə çevrilsə də, məhz onun enerjisi, yəni sosiumun mentaliteti, son nəticədə, tarixi miqyaslı geosiyası və sosial-iqtisadi inkişafa təkan verir, sosiumların inteqrasiyasını təmin edir. Əgər obrazlı desək, sosiumun mentaliteti köklərdir, ictimai dünyagörüşünün və varlığın kökləridir, sosiumun mənəvi və maddi aləminin əsaslarıdır. Təəssüf ki, bu problem dərindən öyrənilməmişdir. Mentalitetin əvəzinə hazırda yaşayan milli-etnik ümimmilliliyin xarakterinin tipoloji xarakterləri, konkret fərdin və insan qruplarının bu və digər ideallara, dəyərlərə, həyat situasiyalarına münasibəti öyrənilir. Əlbəttə, biz belə bir problemin öyrənilməsini çox faydalı tədqiqatçı addımı hesab edirik, lakin bütün bunlar mentalitetə dolayısı aiddir. Yəni şəxsiyyətin və kollektivin mental xarakteristikalarının öyrənilməsində sosioloqların rolunun lazımsızlığı ideyası ilə razılaşmırıq. Hər halda, 70-ci illər Amerika sosioloji fikrində aparılan bəzi tədqiqatların mühüm rolunu inkar etmək düzgün olmazdı [10].

İnsan sivilizasiyasının tarixi təcrübəsi göstərir ki, sosiumun mentalitetinin insan birliklərinin çoxçalarlı fərqlərini, onların tarixinin, milli spesifikliyinin, mədəni-etnik ukladının, dini yönümlərinin qəbul edilmiş fəlsəfi, siyasi və təhsil paradiqmaların və doktrinaların öyrənilməsinə kifayət qədər diqqət verilməməsi mental uyuşmazlığın və sosiumlar arasında qarşılıqlı münasibətlərdə tolerantlığın olmamasının nəticəsidir. Bunu nəzərə almaq lazımdır ki, ideal metod olmadığından sosiumun mentalitetinin araşdırılmasında bu məsələ bir qədər ehtiyat tələb edir.

Bəşər təcrübəsi göstərir ki, hər bir dövlətin sivilizasiya tarixi burada yaşayan xalqların sosial-psixoloji həyat tərzinin formalaşdırılması tarixidir. Qədim mütəfəkkirlər coğrafi məkanı öyrənərkən daha çox xalqların ənənə və davranışına, onlardakı təkrarsız fərqlərə diqqət yetirmişlər. Deyilənə görə, xalqların, tayfaların xarakterini, psixologiyasını, adət-ənənələrini öyrənmək təcrübəsi antik dövrün mütəfəkkiri Feofrastdan başlayır. Mütəxəssislərin fikrincə, xalqların həyat tərzinə, ünsiyyət adətlərinə maraq etnoqrafiya elminin

yaranmasının əsasını qoymuş, elmi-evristik məna daşımışdır. Mənbələrin məlumatına görə, Roma imperiyasında dövlət sferasında çalışan alimlər xalqlar və tayfalar barədə etnoqrafik, empirik bilikləri toplayıb sistemləşdirməyi dövlət əhəmiyyətli fəaliyyət saymış, onlara «xalqları idarə etmək» sənətinin mühüm hissəsi kimi yanaşmışlar. Salnaməçilər belə bir maraqlı faktı qeyd edirlər ki, müxtəlif mədəniyyətlərə malik tayfalar və xalqlar həmsərhəd olmuşdur. Bizansın imperatoru Konstantin Baqryanovodun «İmperiyanı idarə etmək haqqında» (IX əsr) əsərini mütaliə edərkən məhz xalqların adət və ənənələrinə daha çox maraq göstərmiş, bunu xarici münasibətlər qurmaqda mühüm dövləti iş hesab etmişdir.

Ona görə də, bu dövlət öz diplomatik fəaliyyətini həmsərhəd xalqlarla onların adətləri baxımından manipulyasiya etmək üzərində qurmaq məcburiyyətində qalmışdır. Bu isə qonşuların və digər xalqların psixologiyasını öyrənməyi, əgər müasir sosioloji terminlə ifadə etsək, «davranış» modellərinin dərk olunmasına ehtiyac yaratmışdı. Əsərdə göstərilir ki, «bizanslılar barbar tayfalar haqqında məlumatları ciddi şəkildə toplayır və yazılı qeydə alırdılar, onların hərbi qüvvələri, ticarət əlaqələri, digər tayfalarla münasibətləri, aralarındakı çəkişmələr, nüfuzlu adamları və onları pulla ələ almaq vasitələri haqqında məlumatlar toplayırdılar. Həmin böyük səylər sayəsində toplanmış məlumatlar əsasında Bizans diplomatiyası qurulurdu [11, 98]. Təbii ki, belə bir təcrübədən müsəlman şərqinin siyasətçiləri və filosofları da istifadə etmişlər. Görkəmli siyasət nəzəriyyəçisi Nizamülmülk özünün «Siyasətnamə»sində dövrünün dövlət başçılarına tabeçiliklərində olduqları xalqları və təmasda olacağı tayfaların adətlərini öyrənməyi tövsiyə edərək yazırdı ki, «ölkə daxilində, uzaqdan-yaxına, böyükdən-kiçiyə qədər heç bir şey onların gözündən qaçmasın» [12, 29].

İctimai inkişaf tarixi də göstərdi ki, «milli xarakterin» və «milli psixologiyanın» elmi tədqiqi dövlətlərin idarə olunmasında siyasi məqsəd daşımışdır. Qərb ideoloqları başa düşmüşdülər ki, imperiya tərkibinə daxil olan, yaxud da növbəti işğala məruz qalacaq xalqların, tayfaların milli-etnik psixologiyasını, onların etik-mənəvi dünyagörüşünü öyrənməklə, imperiyanın ömrünün uzadılması mümkündür. İctimai inkişaf tarixi də göstərdi ki, «milli xarakterin» və «milli psixologiyanın» elmi tədqiqi dövlətlərin idarə olunmasında siyasi məqsəd daşımışdır. Qərb ideoloqları başa düşmüşdülər ki, imperiya tərkibinə daxil olan, yaxud da növbəti işğala məruz qalacaq xalqların, tayfaların milli-etnik psixologiyasını, onların etik-mənəvi dünyagörüşünü öyrənməklə, imperiyanın ömrünün uzadılması mümkündür.

Tədqiqatın funksional prinsipləri deməyə əsas verir ki, mentalitet nəzəriyyəsinin elmi dəyərini artıran mühüm xüsusiyyət təkcə onun ümumsosioloji dəyərləri deyil, həmçinin xalqın milli şüurunun fəaliyyət qanunauyğunluqlarını öyrənməsidir. Başqa sözlə, mentalitet nəzəriyyəsi mədəni ənənələrdəki dəyişikliklərin xarakteri ilə bağlı konsepsiyalarla yanaşı, mədəni ənənələrdəki

modifikasiya proseslərini, burada etnik şüurda əks olunan spesifik təzahürləri tədqiq edir. Deməli, mentalitet nəzəriyyəsinin predmet mövzusu etnomədəni fenomenlərin öyrənilməsidir.

Mentalitet nəzəriyyəsi sosial etnoqrafik araşdırmalardan çıxış edərək onları şüur səviyyəsində sistemləndirir, ümumiləşdirir və şərh edir. Həmin nəzəriyyədə problemlərin həlli «mentalitet» kateqoriyası prizmasından həyata keçirilir. Deməli, «mentalitet» anlayışı insan varlığının etnomədəni mahiyyətinin dərkində iştirak etdiyindən sosial-fəlsəfi məna kəsb edir.

## ƏDƏBİYYAT


1. Гуревич П.С., Шульман О.И. Менталитет, ментальность // Культурология XX век. М.: Энциклопедия, 2000, 327 с.
2. Гуревич А.Я. Исторический синтез и школа «Анналов». М.: Индрик, 1993, 332 с.
3. Ахиезер А.С. Россия: критика исторического опыта: Теория и методология. Словарь. т.1., Новосибирск: Сибирский хронограф, 1997, 807 с.
4. Горский А.А., Пушкарев Л.Н. Мировосприятие и самосознание русского общества (XI-XX вв.). М.: Просвещение, 1994, 246 с.
5. Гуревич А.Я. Марк Блок и «Апология истории, или ремесло историка». М.: Просвещение, 1996, с. 182-231.
6. Каган М.С, Эткинд А.М. Индивидуальность как объективная реальность // «Вопросы психологии», 1989, №4, с. 5-15
7. Подгорецкая Н.А. Изучение приемов логического мышления у взрослых. М.: МГУ, 1980, 153 с.
8. Ольшанский Д.В.Политическая психологическая. СПБ.: Питер, 2002, 213 с.
9. Дилигенский Г.Г.Социально- политическая психология. М.: Наука, 1994, 218 с.
10. Американская социология: перспективы, проблемы, методы. М.: Прогресс", 1972, 185 с.
11. История дипломатии, М.: Полит. лит-ра, 1959, 896 с.
12. Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk. «Siyasətnamə». B.: Elm, 1987, 208 s.


## КОНЦЕПЦИЯ МЕНТАЛИТЕТА: ВОПРОСЫ МЕТОДОЛОГИИ


**С.Г.АЛИЕВА**


### РЕЗЮМЕ


В статье рассматриваются вопросы менталитета в контексте социально-культурном сообществе народов. А также анализируются вопросы национального мышления, социальные вопросы и другие.



**Ключевые слова:** дидуктивный, рациональный, иррациональный, транспофональный, когнитив, инвариант

## THE THEORY OF MENTALITY: METHODOLOGICAL ISSUES

**S.H.ALIYEVA**

**SUMMARY**

The article deals with the problems of mentality in the social and cultural medium of peoples. National and social problems are also analyzed in the article.

**Key words:** deductive, rational, irasional, transpofonal, cognitive, invariant